

"Hazırda Ermənistanda seçki qabağı proseslər getdiyi üçün hər an qarşı tərəfin təxribatlarını gözləyirik. İndiki hakimiyyət uduzduğunu görən kimi cəbhədə təxribatlara əl atacaq".

Bu sözləri hərbi ekspert, polkovnik Şair Ramaldanov deyib.

O bildirib ki, Azərbaycan təxribatlara layiqli cavab vermək üçün laziımi tədbirlər görüb: "Hazırda Ermənistanda seçki ərəfəsidir. Buna cəmiyyət iki tərəfə parçalanıb. Müxalif tərəfinin nümayəndələri keçmiş məmurlardır. Həmin şəxslərin hər biri müəyyən vəzifələrdə olublar. Onlar artıq müxalif olaraq bir çox şeyi başa düşürlər. Hətta indiki hakimiyyəti Azərbaycanla konstruktiv

olmağa çağırırlar. Çünki Ermənistan iqtisadi vəziyyətlərdən kənarda qalıb. Hər kəs onlardan vaz keçib. Həmçinin Rusiyadan alınan silahlar elə-belə verilmir. Müəyyən şərtlər qoyulur.

Sarkisyanın komandası da seçkilərdə heç vaxt bu qədər zəif olmamışdı. Nəticələr bunu göstərir, cəmiyyət də onların istefasını tələb edir. İndiki hakimiyyət uduzduğunu görsə, təxribata əl atacaq. Əsas da Qarabağ məsələsini ortaya atacaq. Bununla da daha geniş miqyaslı təxribat edib, cəmiyyətin fikrini problemlərdən yayındıraraq Qarabağ məsələsinə yönəltməyə çalışacaqlar. Biz bunu gözləyirik.

Müdafiə Nazirliyi və bizlər erməni tərəfdən hər bir təxribatı gözləyirik".

Polkovnik, Ali baş komandan İlham Əliyevin baş verə biləcək hər hansı təxribatların qarşısının alınması üçün tapşırıqlar verdiyini xatırladıb: "Ali baş komandan, prezident İlham Əliyev son zamanlar cəbhə bölgəsində olduğu zaman müəyyən tapşırıqlar verib. O tapşırıqları yerinə yetirmək üçün də müdafiə naziri və rəhbərliyi yerlərdə olaraq lazımi tədbirlər görürlər. Bunların hamısı istənilən zaman Ermənistandan hər hansı təxribatı gözlədiyimiz üçündür. O təxribatların qarşısını almaq üçün də lazım olar səylər və tədbirlər görülür".

Hərbi ekspert cəbhədə vəziyyətin ara-sıra gərginləşməsi məsələsidən də danışıb: "Hazırda biz müharibə şəraitindəyik. Yəni atəşkəs var, amma bu demək deyil ki, müharibə bitib. Atəşkəs də müharibənin bir vəziyyətidir. Ona görə də bizim silahlı qüvvələrimiz və cəbhə xəttində yerləşən bölmələrimiz döyüş tapşırığını yerinə yetirirlər. Bu tapşırıq əldə olunan mövqeləri əldə saxlamaqdır".